BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 *Humanitar elmlər seriyası* 2008

# BİRİNCİ DÜNYA MÜHARİBƏSİNİN RUSİYA İQTİSADİYYATINDA YARATDIĞI DƏYİŞİKLİKLƏR

**R.B.ƏSƏDOVA**
*AMEA-nın Tarix İnstitutu*

Birinci dünya müharibəsi öz miqyasına və nəticələrinə görə bəşəriyyətin bütün əvvəlki tarixindəki müharibələrdən əsaslı surətdə fərqlənirdi. 1914-ci il avqust ayının 1-dən 1918-ci il noyabrın 11-nə kimi davam etmiş bu müharibə Antanta (İngiltərə, Fransa və Rusiya) və Mərkəz (Almaniya, Avstriya-Macarıstan, Osmanlı və Bolqarıstan) bloku ölkələri arasında hərbi əməliyyatların başlanması, sonrakı dövrdə yeni-yeni dövlətlərin qoşulması ilə dünya müharibəsi xarakteri aldı. Çünki, bu müharibədə iştirak edən 38 dövlətin ərazisində 1,5 milyard insan və ya Yer kürəsi əhalisinin dörddə üç hissəsi yaşayırdı. Hərbi əməliyyatlarda hər iki tərəfdən milyonlarla əsgər və zabitin vuruşduğu ordular o dövrün ən müasir silahları və hərbi texnikası ilə təchiz edilmişdi. Müharibə gedişində hərbi səfərbərliyə bütövlükdə 73,5 milyon insan cəlb olunmuşdu (12, 5).

Birinci dünya müharibəsi həm də çox böyük sənaye potensialının, maliyyə ehtiyatlarının hərbi ehtiyaclara yönəldilməsilə fərqlənirdi. Müharibənin ilk aylarından iştirakçı dövlətlər, bütün insani və maddi-texniki ehtiyatlarını cəbhənin ehtiyaclarını ödəməyə səfərbər etdilər. O zamana qədərki dünya tarixində ilk dəfə idi ki, belə çoxsaylı ordular döyüşlərə cəlb edilir, ən yeni silahlar və döyüş texnikası: pulemyotlar, minomyotlar, tanklar və təyyarələr tətbiq edilirdi. Müharibədə iştirak edən dövlətlərin birbaşa hərbi xərcləri 208 milyard dollara çatmışdı ki, bu da 1793-1907-ci illərdə baş vermiş müharibələrə çəkilən xərclərdən 10 dəfə artıq idi (12, 5). Müharibə bütün iştirakçı dövlətlərin, o cümlədən də Rusiya imperiyasının iqtisadi vəziyyətinə ağır təsir etdi, onun çox qabaqcıl sənaye və maliyyə sahələrindən tutmuş yarımfeodal mülkədar təsərrüfatına qədər bütün iqtisadiyyatda dərin dəyişikliklərə səbəb oldu.

Birinci dünya müharibəsinin Rusiya iqtisadiyyatında yaratdığı dəyişikliкlər tarixşünaslıqda öz əksini müəyyən qədər tapmışdır. Həm ümumi xarakterli əsərlərdə (11,12,13,14) və sənəd toplularında (9, 19), həm də Ş.İ.Basilaya, R.V.Klaus, R.S.Livşits, Z.M.Lozinski, K.A.Pajitnov, A.L.Sidorov və digər tədqiqatçıların monoqrafiyalarında (7, 15, 16, 17, 20, 21, 22, 8, 24) müharibənin imperiya miqyasında iqtisadi həyata, maliyyə sisteminə ağır zərbə vurması konkret faktlarla şərh olunmuşdur. Bəhs olunan dövrdə Azərbaycanın iqtisadiyyatında baş vermiş dəyişikliklər haqqında ümumi xarakterli əsər və dərsliklərdə (1,2,3), həmçinin Ə.S.Sumbatzadə, M.Ə.İsmayılov, T.T.Vəliyev, S.S.Əliyarov, Q.Ə.Əliyev və digər tədqiqatçıların əsərlərində (23,10,4,6,5) çox maraqlı faktlar qeyd olunmuşdur.

Birinci dünya müharibəsinin başlanması ilə əlaqədar keçirilən hərbi səfərbərlik və əlavə çağırışlar nəticəsində 1914-cü ilin payızında Rusiya silahlı qüvvələrində qulluq edənlərin sayı 6,5 milyon adama çatdı (22, 8). Belə böyük ordunu silahlandırmaq, fasiləsiz olaraq döyüş sursatı ilə təchiz etmək, yedizdirmək, isti paltarla və ayaqqabıyla təmin etmək, bir yerdən digər yerə daşımaq olduqca çətin idi. Müharibədən qabaq heç kəs bu qədər böyük hərbi qüvvəni uzun müddət ərzində necə təchiz etmək, arxa cəbhəni təşkil etmək, bütün sənaye potensialını, o cümlədən xüsusi müəssisələri ordunun tələbatını yerinə yetirməyə yönəltmək haqqında ciddi düşünməmişdi. Əksinə yüksək rütbəli hərbçilər və hakim dairələr hesab edirdilər ki, bu müharibə dövlətin bütün qüvvələrinin və maddi ehtiyatlarının tam cəlb edilməsini zəruri etdiyi üçün qısamüddətli olacaq, 6 aydan 1 ilə qədər davam edəcək. Döyüşən dövlətlərin tam taqətdən düşməsinə gətirib çıxaracaq və 1 ildən gec olmayaraq sülh danışıqlarına başlamağa məcbur qalacaqlar (18, 36).

Bununla bərabər, çar hökuməti müharibə ərəfəsində silahlanmaya vəsaiti durmadan artırırdı. 1907-ci ildən 1913-cü ilə kimi Hərbi və Dəniz Nazirliklərinin ümumi büdcəsi 1,67 dəfə artırılmışdı (12, 68). 1908-1913-cü illərdə ordunun yalnız fövqəladə xərcləri üçün 380 milyon vəsait ayrılmışdı ki, onun da yarısı silah və hərbi sursat alınmasına sərf edilmişdi. Müharibənin başlanmasına bir-iki il qalmış ordunun maddi təchizatına ayrılan vəsait daha böyük miqyasda artırılırdı. 1913-cü ildə təkcə bu məqsəd üçün 103,2 milyon rubl xərclənmişdi (13, 524).

Ümumiyyətlə, Rusiya hakim dairələri, o cümlədən də III və IV Dövlət Dumaları hərbi təyinatlı xərclərin artırılmasına aid tələblərə həmişə ləngimədən müsbət cavab verirdi. Çünki bu dumalarda təmsil olunan və rus burjuaziyasının və mülkədarların mənafeyini əks etdirən siyasi partiyalar ordu və donanmanın gücünün artırılmasını təcavüzkar xarici siyasət yeridilməsi üçün çox vacib şərt hesab edirdilər. IV Dumanın 1913-cü ilin sonunda qəbul etdiyi "Ordunun gücləndərilməsi üzrə böyük proqram" adlı sənədə görə, yaxın 4 il ərzində quru qoşunlarının sayı daha 480 min nəfər artırılmalı, artilleriya əhəmiyyətli dərəcədə gücləndirilməli idi. Bu proqramın həyata keçirilməsi üçün birdəfəlik 500 milyon rubl tələb olunurdu (11, 765).

Müharibə illəri üçün iqtisadiyyatın hərbiləşdirilməsi, xüsusən mülki məhsul istehsal edən fabrik və zavodların kütləvi surətdə hərbi məhsul istehsalına keçirilməsi, kənd təsərrüfatında cəbhənin ehtiyacı üçün zəruri olan məhsulların becərilməsinin üstün yer tutması, hərbi xərclərin kəskin şəkildə yüksəlməsi, inflyasiyanın əvvəlki dövrlə müqayisədə misli görünməmiş səviyyəyə çatması, qiymətlərin çox böyük sürətlə artması xarakterik idi. Müharibə uzandıqca onun iqtisadi həyatda yaratdığı dəyişikliklər daha da artır, böhran meylləri dərinləşirdi.

Rusiya imperiyası üzrə Ticarət və Sənaye Nazirliyinin 1914-cü il oktyabrın 1-nə olan məlumatına görə, müharibənin ilk 2 ayı ərzində 502 sənaye müəssisəsi işini dayandırmış, mindən artıq müəssisə isə istehsalı əsaslı surətdə ixtisar etmişdi (15, 41). Əgər müharibə ərəfəsində Rusiya imperiyasında 8,5 min iri sənaye obyektinin fəaliyyət göstərdiyi nəzərə alınarsa, müharibənin başlanması faktının özünün sənaye istehsalına necə ağır zərbə vurduğu bəlli olur. Bunun da başlıca səbəbləri: hərbi əməliyyatların başlanması ilə əlaqədar fabrik və zavodların xammal, yanacaq, maliyyə vəsaiti, işçi qüvvəsi ilə təchizi sahəsində çətinliklərin

artması, hazır mülki məhsulun dəmir yolları ilə daşınmasının kəskin surətdə ixtisar edilməsi, xarici ölkələrlə ticarət əlaqələrinin pozulması və s. idi.

Bu səbəblərdən bəziləri zaman keçdikcə aradan qalxdı, bəziləri isə öz təsirini daha da gücləndirdi. Eyni zamanda ayrı-ayrı sahələrin inkişafına müsbət təsir edən yeni amillər ortaya çıxdı. Bu amillərə, ilk növbədə dövlət sifarişlərinin artması aid idi. Müharibənin davam etdiyi sonrakı illərdə dövlət sifarişlərinin də həcmi artmaqda idi. Bu sifarişlər daha çox bilavasitə silah, döyüş sursatı, partlayıcı maddələr istehsal edən nəhəng müəssisələrdə hasilatın artmasına gətirib çıxardı.

Sənaye müəssisələrinin müharibə şəraitində fəaliyyəti dinc dövrdən əsaslı surətdə fərqlənirdi. Müharibənin başlanması normal istehsal prosesinin pozulmasına, xaricdən maşın və avadanlıqlar, xammal gətirilməsinin kəskin şəkildə ixtisar olunmasına gətirib çıxardı. Yüz minlərlə fəhlə, texniki işçi və mühəndis orduya çağırıldı. Artıq 1914-cü ilin sonunda fabrik və zavodlar öz işçilərinin 30-40 faizə qədərini itirmişdi (22, 337).

İmperiya üzrə metallurgiya müəssisələrində istehsalın aşağı düşməsi xüsusilə kəskin şəkildə nəzərə çarpırdı. Bu, həm metal hasilatında, həm də xüsusi sifarişlərin azalmasında özünü aydın göstərirdi. Müharibənin başlanmasından 1915-ci ilin aprel ayına kimi metal sifarişlərinin həcmi 46 faiz aşağı düşmüşdü. “Prodamet” sindikatı üzvlərinin 1914-cü il oktyabrın 8-də keçirilən müşavirəsində hərbi vəziyyətlə bağlı istehsalın ixtisar edildiyi, xammalın bahalaşdığı qeyd edilmişdi. Bununla əlaqədar gəlirin azalmasına imkan verməmək üçün dəmir təbəqəsinin bir pudunun qiymətinin 15 kop., digər dəmir məhsullarının 10 kop. yüksəldilməsi qərara alınmışdı (19, 152). “Mis” və “Kabel zavodlar birliyi” sindikatları da müharibə başlandıqdan 2 ay sonra istehsal etdikləri misin qiymətini 50 kop. bahalaşdırmışdılar (19, 490-491).

Yalnız silah istehsalının artırılması, döyüş sursatına tələbatın ödənilməsi zərurəti sonrakı dövrdə metallurgiyanın inkişafını zəruri etdi. 1914-cü ilin sonunda imperiyanın 16 ən böyük maşınqayırma zavoduna 60 milyon rubl dəyərində top mərmiləri, 13,3 milyon rubl dəyərində qranat hazırlanması sifariş edildi. Həmin müəssisələrin sahibləri bu ilk hərbi sifarişlərin yerinə yetirilməsi hesabına 60 milyon rubl beh aldılar (22, 29). Həm də əgər dinc dövrdə sahibkarlar hərbi sifariş almaq üçün xəzinəyə girov qoyurdularsa, müharibə başlandıqdan sonra əksinə, dövlət öncədən çox böyük məbləğdə beh verməyə və ya müəssisənin istehsalı genişləndirməsi üçün vəsait ayırmağa başladı.

Birinci dünya müharibəsi illərində silah-sursat istehsalının necə böyük sürətlə artması aşağıdakı rəqəmlərdən aydın görünür. 1914-cü ilin avqust ayına nisbətən 1916-cı ilin avqustunda tüfəng istehsalı 1100 faiz, tüfəng gülləsi istehsalı 250 faiz yüksəlmişdi. Top istehsalı 1916-cı ilin yanvar ayından 1917-ci ilin yanvarına kimi 1000 faiz, 76 mm-lik artilleriya mərmiləri istehsalı 2000 faiz həcmində artmışdı (13, 564). Bilavasitə hərbi sifarişlərlə əlaqədar metal emalı sənayesi 1916-cı ildə məhsul istehsalını bütövlükdə 300 faiz artırmışdı.

Xarici bazarlarla sıx bağlı olan sənaye sahələrində istehsalın azalması daha kəskin idi. Müharibənin ilk aylarında kimya sənayesi, istehsalı kəskin şəkildə azaltdı. Çünki kimya müəssisələrinin əksəriyyəti Almaniyadan gətirilən xammalla işləyirdi. Yalnız 1914-cü ilin sonunda kimya sənayesinin inkişafı üçün ilk addımlar atıldı. Bu da hərbi sifa-

rişlə bağlı idi. Müharibəyə qədərki dövrdə Rusiya ordusunun partlayıcı maddə olan toluola tələbatı ABŞ-dan idxal hesabına ödənilirdi. Birinci dünya müharibəsi başlandıqdan dərhal sonra ABŞ toluolun qiymətini yüksəltdi. Ona görə Rusiya Hərbi Nazirliyi Baş artilleriya idarəsi ölkə daxilində toluol istehsalını qaydaya salmaq üçün akademik V.N.İpatyevə tapşırıq verdi. Baş artilleriya idarəsi yanında Kimya komitəsi 90-dan çox zavodu, o cümlədən kükürd turşusu istehsal edən zavodları partlayıcı maddə istehsalına cəlb etdi (22, 34,65). Akademik V.N.İpatyev həmin zavodlara çox böyük hərbi sifarişlər verməklə istehsalı genişləndirməyə həvəsləndirdi.

Toxuculuq sənayesi üçün xaricdən xammal idxalı kəskin surətdə aşağı düşdüyündən bu sahədə məhsul istehsalı 25-30 faiz ixtisar edildi. Rusiya imperiyası üzrə 1913-cü ildə 415 pambıq-parça sənayesi müəssisəsi 1043 milyon rublluq, 1916-cı ildə isə 432 toxuculuq fabriki 844 milyon rublluq istehsal etmişdi. 1917-ci ildə isə müharibədən əvvəlki istehsal gücünün 70 faizi istifadə olunmuşdu (20, 134-135). Bu müəssisələr Mərkəzi Asiyadan və Azərbaycandan mahlıc almağa keçməli oldular. Şərab və araq istehsal edən zavodların isə əksəriyyəti istehsalı bütünlüklə dayandırmaq məcburiyyətində qaldılar. Sonrakı dövrdə isə bu müəssisələrdə cəbhə üçün partlayıcı maddələr istehsalına başlandı.

Bitki yağı istehsalı zavodları əsasən eksport üçün məhsul istehsal etdiklərindən, anbarlarında çoxlu məhsul yığılıb qaldı. Ona görə də, müharibə başlandıqdan sonra daxili bazarda bir pud bitki yağının qiyməti 13-14 rubldan 7-8 rubla qədər düşdü (22, 337-338). Yalnız bir neçə aydan sonra ordu üçün tədarük sifarişlərinin başlanması və eksportun bərpası nəticəsində bitki yağının satış qiymətləri yenidən yüksəlməyə başladı.

Xəz-dəri istehsalı müəssisələrinin məhsulunun əsas alıcısı Almaniya olduğu üçün, bu sahə üzrə istehsal kəskin surətdə ixtisar edildi. Balıq sənayesi də xarici bazarlarla əlaqələrin kəsilməsi və işçi qüvvəsinin çatışmaması səbəblərinə görə istehsalı azaltmağa məcbur oldu. Xüsusən də Xəzər dənizi limanlarında böyük həcmdə balıq məhsulları yığılıb qaldı.

Müharibənin başlanması xırda müəssisələrə xüsusilə ağır təsir etdi. Kiçik emal müəssisələrinin çoxu qısa bir zaman ərzində işlərini dayandırmaq məcburiyyətində qaldı. Bağlanan müəssisələrin 80 faizi hərbi sifarişlərin yerinə yetirilməsi ilə bağlı olmayan sahələrə aid idi. Məsələn, daş və gil emalı ilə məşğul olan müəssisələrin 51 faizi, yeyinti sənayesi müəssisələrinin üçdə biri işini dayandırmışdı (13, 563). Kiçik və orta müəssisələrin bağlanması 1915-ci ildə də davam etməkdə idi.

Müharibənin başlanması imperiyanın qərb bölgələrinin, xüsusən də Polşa və Baltikyanı quberniyaların iqtisadiyyatına daha ağır təsir etdi. Qərb cəbhəsində rus ordusunun məğlub olub geri çəkilməsi ilə əlaqədar bu bölgələrdəki sənaye müəssisələrinin düşmən əlinə keçməsi və ya daxili quberniyalara köçürülməsi nəticəsində 350 min fəhləsi olan 4,2 min sənaye obyekti itirilmiş oldu. Bu fabrik və zavodlar müharibə ərəfəsində Rusiya sənaye məhsulunun beşdə birini istehsal edirdi (13, 562). Varşava və Lodz rayonlarındakı sənaye müəssisələrinin xeyli hissəsini toxuculuq fabrikləri təşkil etdiyi üçün bu sənaye obyektlərinin itirilməsi Azərbaycanın pambıqçılıq təsərrüfatına və pambıqtəmizləmə sənayesinə də ciddi təsir etdi.

Osmanlı dövlətinə qarşı Rusiya müharibə elan etdikdən sonra Bosfor və Dardanel boğazları vasitəsilə idxal-ixrac əməliyyatlarının dayandırılması da imperiya miqyasında iqtisadi vəziyyətə ağır təsir etdi. Müharibə ərəfəsində Rusiyanin ixrac etdiyi taxılın yalnız 11 faizi Baltik dənizi limanlarından, 80 faizi isə Qara dəniz boğazlarından göndərilirdi. 1903-1912-ci illərdə Rusiyanın ümumi illik ixracının 37 faizi bu boğazların payına düşürdü (12, 44).

Qafqaz cəbhəsində hərbi əməliyyatların başlanması isə Rusiyada mis istehsalına bilavasitə mənfi təsir etdi. 1914-cü ilin noyabrında Batum vilayətinin Artvin dairəsində yerləşən və Qafqaz mis sənayesi cəmiyyətinə məxsus misəritmə zavodunun Osmanlı qoşunları tərəfindən ələ keçirilməsi imperiya miqyasında mis əridilməsinin 200 min pud azalmasına gətirib çıxardı. Həm bu, həm də müharibənin doğurduğu digər səbəblərin nəticəsi idi ki, imperiya üzrə 1914-cü ildə 2500 min pud mis əridilməsi nəzərdə tutulduğu halda, cəmisi 1969 min pud mis əridilmişdi. 1915-ci ildə isə bu göstərici 1,7 milyon puda düşmüşdü (19, 505).

1915-1916-cı illərdə imperiya miqyasında bəzi sənaye sahələrində məhsul istehsalının azalması davam edirdi, həm də bu meyl fəlakətli şəkil almaqda idi. 1917-ci ildə Rusiyada mütləqiyyət quruluşunun devrilməsi, idarə strukturlarında baş verən əsaslı dəyişikliklər, intizamın zəifləməsi fonunda sənaye məhsulu istehsalı daha da azaldı. Həmin il 1916-cı illə müqayisədə sənaye məhsulu istehsalı 36 faiz ixtisar edilmişdi. 1917-ci ilin mart-noyabr ayları ərzində 170 min fəhləsi olan 800 iri müəssisə bağlanmışdı. (8, 46-47). 1917-ci ildə müharibədən əvvəlki dövrə nisbətən çuqun əridilmədi 24,3 faiz azalmış, 44 domna peçi fəaliyyətini dayandırmışdı. İstehsalı dayandırmış müəssisələri sırasında Konstantinovski, “Russkiy providans”, Drujkovski metallurgiya zavodları da vardı (17, 17-18).

Bütün bu faktlar göstərir ki, müharibənin başlanması sənaye müəssisələrinin əksəriyyətində istehsalın azalmasına gətirib çıxardı. İstehsalın ixtisarına təsir edən amillərin bir qismi müvəqqəti xarakter daşıyırdı və tezliklə aradan qaldırıldı. Yanacaq təchizatı və nəqliyyat çətinlikləri, işçi qüvvəsi çatışmaması kimi faktorlar isə müharibənin sonrakı gedişində öz mənfi təsirini daha da artırdı. Bu faktorlar hətta hərbi sifarişlər yerinə yetirilməsinə cəlb olunmuş iri sənaye müəssisələrinin fəaliyyətinə də təsir göstərirdi.

Müharibənin sənaye sahələrinə çox ciddi təsiri həm də sənaye müəssisələrinin hərbi sifarişlər yerinə yetirilməsinə səfərbər edilməsi ilə bağlı idi. Cəbhənin artan ehtiyaclarını ödəmək, xüsusən də döyüş sursatı istehsalında ciddi artıma nail olmaq üçün çar II Nikolayın əmrilə 1915-ci ilin yazında Dövlət Duması və Dövlət Şurası üzvlərindən, xüsusi sənayeçi və maliyyəçilərdən ibarət Dövlətin müdafiəsi üzrə Xüsusi Müşavirə yaradıldı. Xüsusi Müşavirənin mayın 23-də keçirilən iclasında Dövlət Dumasının sədri M.V.Rodzyenko təklif etdi ki, ölkənin ictimai qüvvələri ordunun gücünü artırmaq işinə geniş miqyasda cəlb edilsin (9, 19-20). Bu təklifə əsasən hərbi nazir V.A.Suxomlinov 43 quberniyanın Zemstvo idarəsi sədrlərinə müraciət edərək, onlara öz quberniyalarında hansı fabrik və zavodların dövlətin müdafiəsi ehtiyacları üçün istifadə edilməsi mümkünlüyünü aydınlaşdırmağı tapşırdı. 1915-ci ilin avqustunda Dövlətin müdafiəsi üzrə Xüsusi Müşavirəyə çox geniş səlahiyyətlər verildi. Bu orqan ordu və donanmanı bütün növ silah və sursatla

təmin etməklə yanaşı, arxa cəbhənin təchizatla bağlı bütün səylərini əlaqələndirməli idi. Dövlətin müdafiəsi üzrə Xüsusi Müşavirə sədri xəzinə sifarişlərini yerinə yetirməyən xüsusi sənaye müəssisələrini bağlamaq, xəzinə sifarışlərinin digərlərindən öncə həyata keçirilməsini tələb etmək, xüsusi müəssisələri dövlət mənafeyinə uyğun olaraq zəbt etmək və onu idarə etmək üçün səlahiyyətli şəxs təyin etmək, əmək haqqını tənzimləmək kimi müstəsna səlahiyyətlərə malik idi (9, 221-222). Bu addımlar 1915-ci ilin payızında sənaye müəssisələrinin hərbi ehtiyaclar üçün səfərbər edilməsinə imkan verdi. Nəticədə imperiya üzrə sənaye məhsulu istehsalı hərbi sifarişlərin hesabına artmağa başladı. Bu, sənaye məhsulu istehsalının illər üzrə necə dəyişdiyini əks etdirən aşağıdakı rəqəmlərdən (13, 563) aydın görünür:

1913-cü ildə 5620,8 milyon rubl 100 faiz
1914-cü ildə 5690,4 milyon rubl 101,2 faiz
1915-ci ildə 6389,7 milyon rubl 113,7 faiz
1916-cı ildə 6831,4 milyon rubl 121,5 faiz
1917-ci ildə 4344,1 milyon rubl 77,3 faiz

Bu rəqəmlərin təhlili göstərir ki, 1914-cü ildə sənaye istehsalı 1913-cü illə müqayisədə, demək olar ki, dəyişməmişdi. 1915-ci ildə sənaye müəssisələrinin hərbi ehtiyacların ödənilməsinə səfərbər edilməsi yenicə öz bəhrəsini verməyə başlayırdı. Nəhayət, 1916-cı ildə nisbətən yüksək artım müşahidə edilir ki, bu da sonrakı ildə kəskin dönüşlə əvəz olundu. Sənaye istehsalının bu cür inkişafı cəbhənin artan tələbatını ödəmək iqtidarında deyildi.

Rusiyanın hakim dairələrinin müharibəyə yarıtmaz hazırlığı ordunun silahla təchizi barədə yanlış hasablamalarda da özünü göstərirdi. Hərbi nazirliyin proqnozuna ordunun silaha tələbatı 6,5 milyon tüfəng, 5 min pulemyot, 7 min yüngül top və s. həcmində olacaqdı. Müharibənin gedişində isə aydın oldu ki, 17 milyon tüfəng gərəkdir. Pulemyota tələb isə nəzərdə tutulduğundan 15 dəfə, yüngül səhra toplarına tələb 2 dəfə yüksək idi (24, 72). Çar II Nikolayın 1914-cü il dekabrın 15-də Baş qərargaha gəlişi zamanı ona məlumat verilmişdi ki, cəbhənin tüfəngə ehtiyacı ilin sonuna kimi birdəfəyə 1,5 milyon, sonrakı dövrdə isə hər ay üçün 100-150 min ədədə qədərdir. Həmin dövrdə Rusiya imperiyasındakı bütün silah zavodlarının aylıq istehsal gücü 71-78 min ədədə bərabər idi və yalnız 1916-cı ilin mart ayında 100 min həddinə çatdırıldı (22, 23). Döyüşən ordunun tüfəng güllələrinə və top mərmilərinə ehtiyacı da ödənilmirdi. Ölkənin patron zavodlarının aylıq istehsal gücü 100 milyon patron idi ki, bu da ordunun tələbatının yarısına bərabər idi (22, 24). Top mərmilərinə tələbatın yerinə yetirilməsi vəziyyəti daha acınacaqlı idi. 1914-cü ilin dekabrından 1915-ci ilin mart ayının sonuna kimi orduya müxtəlif kalibrli 1945 min ədəd mərmi göndərilmişdi ki, bu da tələbatın üçdə biri həcmində idi (22, 22) ki, həm də belə təminat gün ərzində hər topa 2 dəfə atəş açmağa ancaq çatırdı.

Birinci dünya müharibəsinin başlanması Rusiya imperiyasının maliyyə vəziyyətinə ciddi təsir etdi. Rusiya bankları dövlətin artan hərbi xərclərini ödəmək iqtidarında deyildi. Bu da Rusiyanın xarici kapitaldan asılılığını artırırdı. Dəfələrlə artan hərbi xərcləri qarşılamaq üçün çar hökuməti xüsusi banklardan və Antanta üzrə müttəfiqlərindən borc istəməyə məcbur idi. Artıq 1914-cü ilin əvvəlində Fransanın Rusiyaya qoyduğu kapital 10 milyard franka çatmışdı (12, 38). Dövlətin xarici

borcu isə bütövlükdə müharibə ərəfəsində 5,5 milyard rubla qədər yüksəlmişdi (21, 517). Müharibə illərində xarici borc daha 7,2 milyard rubl artmışdı. Rusiyanın Birinci dünya müharibəsi dövründə iqtisadi və maliyyə vəziyyətinin görkəmli tədqiqatçısı A.L.Sidorovun hesablamalarına görə, müharibənin sonunda Rusiyanın ümumi dövlət borcu 50 milyard rubla çatmışdı (21, 526). Müharibənin hər bir günü 50 milyon rubla başa gəlirdi.

Müharibə illərində maliyyə vəsaitinə daim artan ehtiyacı ödəmək üçün çar hökuməti kağız pul buraxılmasını ildən-ilə artırmağa başladı. 1914-cü ilin yanvar ayından 1917-ci ilin yanvarına kimi tədavüldə olan kredit biletlərinin məbləği 1,5 milyard rubldan 9,1 miyard rubla çatdı ki, bu da kağız rublun sürətlə qiymətdən düşməsinə gətirib çıxardı. Belə vəziyyətdə rublun alıcılıq qabiliyyəti kəskin şəkildə aşağı düşdü. Artıq 1915-ci ilin əvvəlində 1 rublun rəsmi məzənnəsi 80 kop.-a, 1916-cı ilin sonunda 60 kop.-a, 1917-ci ilin martında isə 27 kop.-a bərabər oldu (17, 122). Rusiya valyutasının bu cür fəlakətli şəkildə dəyərdən düşməsinin əsas səbəblərindən biri dövlətin ticarət balansının mənfi olması idi. Müttəfiq dövlətlərdən idxal edilən silah və hərbi sursatın həcmi artaraq ixracı sürətlə ötüb keçmişdi. Digər mühüm səbəb, çar hakimiyyətinin zəifliyini hiss edən sənaye nəhənglərinin öz kapitallarının əsas hissəsini xarici banklara köçürmələri idi.

**QEYDLƏR:**


1. Azərbaycan tarixi. Üç cilddə, II c. Bakı: 1964.
2. Azərbaycan tarixi. Yeddi cilddə, V c. Bakı: 2001.
3. XX əsr Azərbaycan tarixi. Prof. Y.B.Yusifov və T.T.Vəliyevin ümumi redaktəsi ilə. II c. Bakı: 2004.
4. Vəliyev T.T. İmperializm dövründə Azərbaycanın sənayesi və proletariatı. Bakı: 1987.
5. Əliyev Q.Ə. Azərbaycanın nəqliyyatı və iqtisadiyyatı (XIX əsr – XX əsrin ilk onillikləri). Bakı: 2001.
6. Алияров С.С. Нефтяные монополии в Азербайджане в период первой мировой войны. Баку: 1974.
7. Басилая Ш.И. Закавказье в годы первой мировой войны. Сухуми: 1968.
8. Гладков И.А. Очерки строительства советского планового хозяйства в 1917-1918 гг. М.: 1950.
9. Журналы Особого совещания по обороне государства. 1915 год. М.: 1975.
10. Исмаилов М.А. Социально-экономическая структура Азербайджана в эпоху империализма. Баку: 1982.
11. История дипломатии, т.2, М.: 1963.
12. История первой мировой войны. 1914-1918 (Под ред. И.И.Ростунова), т.1, М.: 1975.
13. История СССР. С древнейших времен до наших дней, т. VI, М.: 1968.
14. История народного хозяйства СССР (1917-1959 гг.). Под ред. А.П.Погребинского. М.: 1960.
15. Клаус Р.В. Война и народное хозяйство России (1914-1917 гг.) М.-Л.: 1926.
16. Лившиц Р.С. Размещение промышленности в дореволюционной России. М.: 1955.
17. Лозинский А.А. Экономическая политика Временного правительства. Л.: 1929.
18. Маниковский А.А. Боевое снабжение русской армии в мировую войну. М.: 1937.
19. Монополии в металлургической промышленности России. 1900-1917. Документы и материалы. М.-Л.: 1963.
20. Пажитнов К.А. Очерки истории текстильной промышленности дореволюционной России. М.: 1958.

21. Сидоров А.Л. Финансовое положение России в годы первой мировой войны. М.: 1960.
22. Сидоров А.Л. Экономическое положение России в годы первой мировой войны. М.: 1973.
23. Сумбатзаде А.С. Социально-экономические предпосылки победы Советской власти в Азербайджане. М.: 1972.
24. Энгельгардт Б.А. Потонувший мир. – «Военно-исторический журнал», 1964, №1.

## ИЗМЕНЕНИЯ В ЭКОНОМИКЕ РОССИИ ПОД ВЛИЯНИЕМ ПЕРВОЙ МИРОВОЙ ВОЙНЫ

Р.Б.АСАДОВА

### РЕЗЮМЕ

Первая мировая война по своему масштабу существенным образом отличалась от всех предшествующих войн. Эта война потребовала создания многомиллионных армий, оснащенных мощной военной техникой. Содержание и материально-техническое обеспечение таких армий было возможным лишь при условии мобилизации всех производительных сил страны, подчинения всей экономики, в особенности, промышленности, военным нуждам.

Война, разорвав мировые экономические отношения, существенным образом нарушила внутренние торговые и производственные связи. Под влиянием войны большинство предприятий сокращало производство и это было связано с призывом рабочих в армию, перебоями на транспорте, нарушением торговых связей с заграницей, нехваткой сырья и т.п. В 1914-1915 гг. промышленность России с большими трудностями начала приспосабливаться к условиям войны. Но даже увеличение производства на 21,5% в 1916 г. не смогло улучшить ситуацию на фронте.

## THE CHANGE IN THE ECONOMY OF RUSSIA UNDER THE INFLUENCE OF THE WORLD WAR FIRST

R.B.ASADOVA

### SUMMARY

The World war first, according to its scale was considerably differed from all previous wars. This war required the creation of multimillion armies, equipped with powerful military technics. The maintenance and material-technical ensuring of such armies was possible only under the condition of mobilization of all the productive forces of the country, submission of all economy, especially industry for military needs as well. The war, having broken the world economical relations, considerably violated the internal trade and productive ties as well. Under the influence of war the majority of enterprises shortened their product and it was connected with the appealing of workers to army, the stoppages in transport, the violation of trading ties with abroad, shortage of raw materials and others. In the years of 1914-1915 the industry of Russia with great difficulties began to adapt to the war condition. And even increasing of product to 21,5% in the year of 1916 couldn't make the situation at the front better.